

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 mart 2022-ci il №23 (2634) https://mod.gov.az Qiymәti 30 qəpik

## Amerika Birləşmiş Ştatlarının Prezidenti Zati-aliləri cənab Cozef Baydenə

Hörmətli cənab Prezident,

Novruz bayramı münasibətilə təbrik məktubunuza və xoş sözlərinizə görə Sizə təşəkkürümü bildirirəm.

Sizin də qeyd etdiyiniz kimi, bu il biz Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında əlamətdar ildönümünü - diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik. Bu hadisə ilə əlaqədar Sizi təbrik edir, dost Amerika xalqına ən səmimi arzularımı çatdırıram.

Məmnunluqla qeyd etmək istəyirəm ki, ötən otuz ildə ölkələrimiz arasında uğurlu ikitərəfli münasibətlər formalaşmışdır. Bu dövr ərzində çoxşaxəli səmərəli fəaliyyətimiz qarşılıqlı investisiya yatırımı, ölkənizi təmsil edən yüzlərlə şirkətin Azərbaycanın iqtisadi həyatında fəal iştirakı ilə müşayiət olunmuşdur.

Azərbaycan ilə Birləşmiş Ştatların ikitərəfli müstəvidə olduğu kimi, çoxtərəfli əsasda da vacib məsələlərin həlli istiqamətində birgə fəaliyyəti təqdirəlayiqdir. Bu baxımdan enerji təhlükəsizliyi, beynəlxalq təhlükəsizlik, terrorizmə qarşı mübarizə tərəfdaşlığımızı səciyyələndirən aparıcı sahələr sırasındadır. Qlobal enerji təhlükəsizliyinin təmin edilməsi üçün böyük əhəmiyyət kəsb edən Xəzər dənizinin Azərbaycan sektorunda zəngin enerji ehtiyatlarının işlənməsi və dünya bazarlarına nəqli, irimiqyaslı transmilli enerji layihələrinin reallaşması sahəsində ABŞ-ın göstərdiyi ardıcıl dəstəyi yüksək qiymətləndiririk.

Azərbaycan beynəlxalq terrorizm və onun müxtəlif təzahürlərinə qarşı mübarizədə də Birləşmiş Ştatlarla bir sırada yer almış, etibarlı tərəfdaş olduğunu sübut etmişdir. Ölkəmizin NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək missiyası çərçivəsində sona qədər ABŞ-la sıx işbirliyi beynəlxalq sülh və təhlükəsizliyə verdiyimiz töhfənin bariz təzahürüdür.

Hörmətli cənab Prezident,

Bu gün Azərbaycan Respublikası xalqın iradəsi və maraqları əsasında müstəqil siyasət yürüdən dövlətdir. Azərbaycanın tarixi torpaqlarının işğaldan azad edilməsi ilə Ermənistanın Azərbaycana qarşı otuz ilə yaxın davam edən hərbi təcavüzünə son qoyulmuş və ölkəmiz 30 ilə yaxın müddət ərzində icra edilməmiş vəziyyətdə qalmış BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini özü icra etmişdir. Biz sülhün tərəfdarı olaraq ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi beynəlxalq hüququn fundamental baza prinsipləri əsasında Ermənistanla sülh sazişi üzrə danışıqlara başlamağa hazırıq. Gələcəyə köklənmiş baxış əsasında ABŞ-ın Azərbaycanın sülh gündəliyini dəstəkləyəcəyinə ümidvarıq.

İşğaldan azad edilmiş torpaqlarımızda postmünaqişə dövründə bərpa və yenidənqurma işləri həyata keçirilir. Biz ABŞ-dan olan şirkətlərin də bu prosesdə iştirakını görməkdən məmnun olardıq.

İnanıram ki, dost və tərəfdaş olaraq bütün sahələrdə ölkələrimizin maraqları və xalqlarımızın rifahı naminə əhəmiyyətli potensiala malik əməkdaşlığımızın daha da inkişaf etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost Amerika xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 mart 2022-ci il.

# Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki




*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Tərtər rayonunun Suqovuşan qəsəbəsində bayram tonqalı alovlandırıblar.*

*Sonra dövlətimizin başçısı Azərbaycan xalqını təbrik edib.*

**Prezident İlham Əliyevin təbriki**

- Əziz bacılar və qardaşlar.

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm.

İkinci dəfədir ki, tarixi Zəfərimizdən sonra biz Novruz bayramını doğma Qarabağ diyarında qeyd edirik. Bilirəm, hər birimiz, xüsusilə keçmiş məcburi köçkünlər hər dəfə bayram ərəfəsində və bayram günlərində deyirdik ki, İnşallah, gələn il azad edilmiş torpaqlarda, Qarabağda Novruz bayramını qeyd edəcəyik və artıq bu, reallıqdır. İkinci dəfədir ki, bu gözəl bahar bayramını biz işğaldan azad edilmiş torpaqlarda qeyd edirik. Bu gün mən Novruz tonqalını burada - Suqovuşanda qaladım, qədim Azərbaycan diyarı olan Suqovuşanda. Keçən il isə Novruz bayramını mən Şuşa şəhərində, hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etmişdim və Azərbaycan xalqına müraciət etmişdim. Şadam və xoşbəxtəm ki, artıq bu, bir ənənəyə çevrilib və Novruz bayramını biz burada, doğma Qarabağ diyarında qeyd edirik.

Suqovuşan qədim Azərbaycanın tarixi yeridir. Azərbaycan xalqı bu ərazilərdə əsrlər boyu yaşayıb. Ancaq 1923-cü ildə doğma Qarabağ diyarımızda qanunsuz və heç bir əsası olmadan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdır. Qarabağın gözəl, səfalı yerləri qondarma quruma daxil edilmişdi, o cümlədən Şuşa şəhəri və Suqovuşan qəsəbəsi. Bu, xalqımıza qarşı növbəti ədalətsizlik idi, növbəti düşmənçilik idi. Çünki Qarabağ, onun tarixi Azərbaycan xalqının adı ilə bağlıdır. Azərbaycan xalqı Qarabağda əsrlər boyu yaşayıb. Sadəcə olaraq, siyasi məqsədlər naminə uzun illər, sovet dövründə burada qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti fəaliyyət göstərirdi. Bildiyiniz kimi, sonra ermənilər xalqımıza qarşı işğalçılıq siyasətinə əl atdılar və 30 ilə yaxın müddətdə bizim doğma Qarabağımız və Şərqi Zəngəzurun bir hissəsi ermənilərin əlində idi. Buna son qoyulmalı idi və son qoyuldu. Biz gördük ki, heç bir danışıqlar, heç bir siyasi addımlar bizi məqsədimizə yaxınlaşdırmır. Biz görürdük və bilirdik, ancaq güclü, daha iradəli olmalıyıq ki, öz haqqımızı qoruyaq, tarixi ədaləti bərpa edək. Azərbaycan dövləti, Azərbaycan Ordusu, bütün Silahlı Qüvvələrimiz bu tarixi missiyanı 2020-ci ildə yerinə yetirdi. Biz döyüşərək, qan tökərək, şəhidlər verərək doğma diyarımızı erməni işğalından azad etdik və Qarabağa qayıtdıq. Biz artıq burada yerləşmişik, biz buraya qayıtmışıq, doğma diyarımıza qayıtmışıq. Bütün Qarabağ və Şərqi Zəngəzur bölgəsində çox genişmiqyaslı abadlıq işləri aparılır, şəhərlər yenidən qurulur, kəndlər yenidən salınır. Əlbəttə ki, bizim əsas vəzifəmiz keçmiş məcburi köçkünləri tezliklə bu doğma diyara qaytarmaqdır.

**(Ardı 2-ci səhifədə)**

# Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki

(Əvvəli 1-ci səhifədə)



Abadlıq və quruculuq işləri, o cümlədən Suqovuşan qəsəbəsində də geniş vüsət alıbdır. Bu gün burada bir neçə tədbirdə iştirak etmişəm, o cümlədən yaşayış binalarının bərpası, turizm zonalarının yaradılması. Bütövlükdə həm Qarabağda, həm Şərqi Zəngəzurda quruculuq, abadlıq işləri planlı şəkildə aparılır. Biz elə etməliyik ki, qısa müddət ərzində ancaq böyük səmərə ilə və böyük keyfiyyətlə 10 min kvadratkilometrdən çox olan ərazini yenidən quraq. Çünki mənfur düşmən işğal dövründə bütün şəhərlərimizi, kəndlərimizi yerlə-yeksan edib, bütün tarixi abidələrimizi dağıdıb, təhqir edib. Biz isə qurub-yaradan xalqıq. Müharibədən cəmi bir ildən bir qədər çox vaxt keçməsinə baxmayaraq, biz artıq qurub-yaradırıq. Əminəm ki, biz bütün planlara, nəzərdə tutulmuş bütün məqsədlərə nail olacağıq və nail oluruq. Budur bugünkü Azərbaycanın reallıqları. Bugünkü güclü Azərbaycan bütün bu işləri görməyə qadirdir. Siyasi iradə var, iqtisadi güc var, xalqımızın səfərbərliyi var, milli həmrəylik ən yüksək zirvədədir və əlbəttə ki, şanlı tarixi Zəfərimiz hər birimiz üçün qürur mənbəyidir. Biz haqlı olaraq fəxr edirik ki, müzəffər dövlətin vətəndaşlarıyıq, ordumuzla fəxr edirik, insanlarımızla fəxr edirik. Bizə bu xoşbəxtliyi yaşadan gənclərimizlə fəxr edirik və əbədi fəxr edəcəyik. Biz Qarabağa və Şərqi Zəngəzura əbədi qayıtmışıq və burada, tarixi torpaqlarımızda bundan sonra əbədi yaşayacağıq.

Bu gün bu gözəl mənzərəli yerlərə baxdıqca bir daha görürəm, diyarımız nə qədər gözəldir, dağlarımız nə qədər əzəmətlidir. Bütün bu tarixi gözəlliyə biz gözəllik qatacağıq, zövq qatacağıq və burada azərbaycanlılar rahat yaşayacaqlar, sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayacaqlar. Sülhün və təhlükəsizliyin təminatçısı Azərbaycan dövlətidir və Azərbaycan Silahlı Qüvvələridir.

Mən xoşbəxt adamam ki, əziz, doğma xalqıma işğaldan azad edilmiş Qarabağdan Novruz bayramı münasibətilə təbriklərimi çatdırıram. Bu əziz gündə bir daha bütün Azərbaycan xalqını gözəl bayram münasibətilə təbrik etmək istəyirəm. Bir daha demək istəyirəm, bundan sonra da var gücümlə çalışacağam ki, Azərbaycan daim sürətlə inkişaf etsin, yüksələn xətlə getsin və qarşıda duran bütün vəzifələr icra edilsin. Qarabağ Azərbaycandır!

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə Nazirliyinin Suqovuşanda "N" hərbi hissəsinin açılışı olub











*Tərtər rayonunun Suqovuşan qəsəbəsində Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin açılışı olub.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak etdilər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov dövlətimizin başçısına raport verdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva əvvəlcə sıra meydanında düzülmüş döyüş texnikalarına baxdılar.

Silahlı Qüvvələrin Ali Baş Komandanına hərbi hissədə yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, hərbi hissənin ərazisində nəzarət-buraxılış məntəqəsi, qərargah binaları, əsgər yataqxanaları, tibb məntəqəsi, qazanxanalar, mağaza, 174 nəfərlik yeməkxana binası yaradılıb. Hərbi hissənin qərargah binasında hərbçilər üçün bütün zəruri avadanlıqla təchiz edilən iş otaqları var. Əsgər yeməkxanası da müasir səviyyədədir.

Dövlətimizin başçısı və birinci xanım hərbi hissənin əsgər yeməkxanasında yaradılan şəraitlə tanış oldular.

Burada hərbi qulluqçulara xidməti yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait yaradılıb.

İşğaldan azad edilən ərazilərdə hərbi hissələrin açılması, ən müasir texnikalarla təchizatı onu göstərir ki, Azərbaycan hərbi təhlükəsizliyini xüsusi diqqətdə saxlayır. Bunun üçün kifayət qədər imkan, ən əsası siyasi iradə var. Digər tərəfdən, cəmiyyət də dövlətin bu istiqamət üzrə siyasətini dəstəkləyir və birmənalı şəkildə dövlətin yanında olduğunu nümayiş etdirir.

# Azərbaycanın müdafiə nazirinin Pakistana rəsmi səfəri



*<u>Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Razanın dəvəti ilə martın 21-də bu ölkəyə rəsmi səfərə gedib.</u>*

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümayəndə heyətinin Pakistana rəsmi səfəri çərçivəsində martın 21-də general-polkovnik Zakir Həsənovla Pakistanın Baş naziri İmran Xan arasında görüş keçirilib.

Görüşdə dövlətlərimiz arasında əlaqələrin inkişafında ölkə rəhbərlərinin səmimi dostluq münasibətlərinin mühüm rol oynadığı vurğulanıb.

Azərbaycan-Pakistan hərbi əməkdaşlığının yüksələn xətlə inkişaf etdiyini qeyd edən general-polkovnik Zakir Həsənov Azərbaycanın ədalətli mövqeyini beynəlxalq təşkilatlar da daxil olmaqla bütün səviyyələrdə dəstəklədiyinə görə Pakistan rəhbərliyinə və xalqına minnətdarlığını bildirib.

Sonda ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, eləcə də hərbi əməkdaşlıq sahəsində inkişafından məmnunluq ifadə olunub, qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.







* * *

Pakistan İslam Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizin Pakistandakı səfirliyini ziyarət edib.

Ziyarət zamanı səfirliyin inzibati binasında ucaldılmış ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub, xatirəsi ehtiramla anılıb.

* * *

Pakistan İslam Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov bu ölkənin Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Raza ilə görüşüb.

Görüşdən əvvəl rəsmi qarşılanma mərasimi keçirilib. Hər iki ölkənin Dövlət Himnləri səsləndirildikdən sonra müdafiə naziri general-polkovnik Zakir Həsənov fəxri qarovulun önündən keçib.

General Nadim Raza qonaqları salamlayaraq onları ölkələrində görməkdən məmnunluğunu ifadə edib. Azərbaycan ilə Pakistan arasında dostluq münasibətlərinin xeyli inkişaf etdiyini və yeni mərhələyə qədəm qoyduğunu bildirib.

Dəvətə görə təşəkkürünü bildirən general-polkovnik Zakir Həsənov xalqlarımız arasında tarixən dostluq əlaqələrinin olduğunu, bu münasibətlərin digər sahələrdə olduğu kimi ikitərəfli hərbi əməkdaşlığın da inkişafına böyük töhfə verdiyini qeyd edib.

Görüşdə iki ölkə ordularının qoşun növləri arasında əlaqələrin genişləndirilməsi, qarşılıqlı səfərlərin təşkili və əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyəti xüsusi vurğulanıb.

Tərəflər Azərbaycan ilə Pakistan arasında hərbi, hərbi-texniki, hərbi təhsil, terrorla mübarizə və təhlükəsizliklə bağlı digər məsələləri müzakirə ediblər.



* * *

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Pakistan Ordu Muzeyini ziyarət edib.

Qonaqlara muzeydə nümayiş etdirilən eksponatlar haqqında ətraflı məlumat verilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Ordu Muzeyinin fəxri qonaqlar kitabına xatirə sözlərini yazıb.

* * *

Pakistan İslam Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümayəndə heyəti martın 23-də Pakistan Günü münasibətilə keçirilən hərbi paradı izləyib.





Paradda fəxri qonaq qismində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov iştirak edib.

Müxtəlif dövlətlərin silahlı qüvvələrinin nümayəndələrinin qatıldığı hərbi paradda ölkəmizi Azərbaycan Ordusunun parad heyəti təmsil edib.

* * *

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Pakistan İslam Respublikasının Quru Qoşunları komandanı general Qamar Caved Bacva ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Pakistan arasında ikitərəfli əlaqələrin, o cümlədən hərbi əməkdaşlıq və strateji tərəfdaşlığın yüksələn xətlə inkişafından danışılıb.

Həmçinin Azərbaycan, Pakistan və Türkiyənin iştirakı ilə ikitərəfli, eləcə də üçtərəfli birgə hərbi əməkdaşlığın genişləndirilməsi istiqamətində görülən işlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Sonda hərbi, hərbi-texniki, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyi vurğulanıb.

# Azad edilən ərazilərdə dislokasiya olunan hərbi hissələrin döyüş hazırlığı yoxlanılıb





*Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev döyüş hazırlığını qəfil yoxlamaq məqsədilə Şuşa və Hadrutda dislokasiya olunan bölmələrdə olub.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, həyəcan siqnalı ilə qaldırılan bölmələrin yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsi, komandirlərin çevik qərar qəbuletmə və qüvvələrin tətbiqi üzrə praktiki vərdişləri, döyüş növbəsinin gücləndirilməsi və digər fəaliyyətlər məşq etdirilib.



Baş Qərargah rəisi döyüş, fiziki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin daha da artırılması, hərbi intizamın möhkəmləndirilməsi, eləcə də maddi-texniki təminat məsələləri ilə əlaqədar aidiyyəti üzrə vəzifəli şəxslərə konkret tapşırıqlar verib.

Sonra general-polkovnik Kərim Vəliyev komando hərbi hissələrindən birində yaradılan şəraitlə tanış olub.

Baş Qərargah rəisi şəxsi heyətlə görüşərək onların qayğıları ilə maraqlanıb. Azərbaycan Ordusunun hərbi qulluqçularının Vətən müharibəsində göstərdikləri şücaət və qəhrəmanlıqların Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən yüksək qiymətləndirildiyini bir daha şəxsi heyətin diqqətinə çatdırıb.

General-polkovnik Kərim Vəliyev şəxsi heyəti Novruz bayramı münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

Daha sonra komandir heyətinin iştirakı ilə xidməti müşavirə keçirilib, Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqlar şəxsi heyətin diqqətinə çatdırılıb.

Bölmələrin döyüş qabiliyyətinin daha da yüksəldilməsi, komandir heyətinin bilik və bacarıqlarının təkmilləşdirilməsi, eləcə də silahlanmaya yeni qəbul edilən silah, texnika və cihazların imkanlarının öyrənilməsi, Vətən müharibəsində qazanılan təcrübə ilə yanaşı, müasir döyüş aparma üsulları nəzərə alınmaqla təlimlərin real döyüş şəraitinə uyğun davam etdirilməsi, həmçinin bayram günlərində ayıq-sayıqlığın artırılması ilə əlaqədar müvafiq göstərişlər verilib.



# Baş Qərargah rəisi Rusiya Quru Qoşunları Baş Komandanının müavini ilə görüşüb

*Martın 22-də müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Rusiya Federasiyası Silahlı Qüvvələrinin Quru Qoşunları Baş Komandanının sülhməramlı fəaliyyət üzrə müavini general-polkovnik Aleksey Kimin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdə Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin Bəyanatının müddəalarının icrası məsələləri, eləcə də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan əraziləri boyunca əməliyyat şəraiti müzakirə olunub.

Tərəflər 10 noyabr 2020-ci il tarixli Bəyanatın 4-cü bəndinə müvafiq olaraq qanunsuz erməni silahlı qruplaşmalarının Azərbaycan ərazilərindən çıxarılması prosesi və bir sıra digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıblar.

# Əlahiddə Ümumqoşun Orduya sovqat hədiyyə edilib

Naxçıvan Muxtar Respublikasında xalqla ordu arasında möhkəm əlaqənin, sarsılmaz birliyin mövcud olması ordumuzun gücünü daha da artırır. Xalq-ordu birliyini özündə əks etdirən amillərdən biri də ələmətdar günlərdə hərbi hissələrə sovqat aparmaq, əsgərlərimizə mənəvi dəstək olmaqdır.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bu ənənənin davamı olaraq Novruz bayramında Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsinə 25 ton 920 kiloqram alma təqdim edilib. Bayram münasibətilə hərbi hissələrə sovqatların verilməsi şəxsi heyət tərəfindən ruh yüksəkliyi ilə qarşılanıb.

# Azərbaycan Ordusunda Novruz bayramı münasibətilə tədbirlər keçirilib



Cari ilin fəaliyyət planına əsasən, Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissələrdə Novruz bayramı münasibətilə silsilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlər çərçivəsində hərbi qulluqçular şəhidlərimizin məzarlarını ziyarət edib, onların ailələri ilə görüşüblər.

Görüşlərdə dövlətimiz tərəfindən şəhidlərimizin xatirəsinin hər zaman uca tutulduğu qeyd olunub, ailələrin qayğıları öyrənilib.

Şəhid ailələri Vətən müharibəsində qazanılan qələbənin xalqımıza böyük sevinc yaşatdığını vurğulayaraq göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkürünü bildiriblər.

Silsilə tədbirlərdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Çıxış edənlər yazın gəlişinin ölkəmizdə sevinc, coşqu



və təntənə ilə qeyd edilməsindən söhbət açıblar.

Qədim dövrlərdə yaranan, milli-mənəvi dəyərlərimizdən biri olan Novruz bayramının xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirilməsindən, onun qorunaraq gələcək nəsillərə ötürülməsinin əhəmiyyətindən danışıblar.

Bayram tədbirlərində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin, həmçinin mədəniyyət və incəsənət nümayəndələrinin, rayon mədəniyyət şöbələri kollektivlərinin iştirakı ilə konsert proqramları təqdim olunub.

* * *

Bayram tədbirləri Naxçıvan Muxtar Respublikasında yerləşən birləşmə, hissə və bölmələrdə, Təlim-Tədris Mərkəzlərində, Heydər Əliyev adına Hərbi Liseydə, Naxçıvan Qarnizonunun tam orta məktəbində və uşaq bağçalarında da təşkil olundu.

Əlahiddə Ümumqoşun Ordunun ön xətdə yerləşən hərbi hissələrindən birində keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının ictimaiyyət,



mədəniyyət, mətbuat nümayəndələri və müharibə iştirakçıları şəxsi heyətlə görüşdülər. Tədbirdə çıxış edənlər şəxsi heyəti təbrik edərək xidmətlərində uğurlar arzuladılar. Çıxışlarda bildirildi ki, ulu öndərimiz Heydər Əliyev tarixi-mədəni keçmişimizə yüksək ehtiramın, milli dəyərlərimizə dərin bağlılığın ifadəsi olan Novruz ənənələrinin də yaşadılması qayğısına qalaraq bu bayramı milli varlığımızın və müstəqil dövlətçiliyimizin rəmzinə çevirib. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə Vətən müharibəsində işğal altındakı torpaqlarımızı azad edən Azərbaycan Ordusu həm də milli-mənəvi dəyərlərimizin əzəli yurd yerlərimizdə yenidən bərqərar olmasına şərait yaratdı. Artıq ikinci ildir ki, Novruz tonqalları Şuşada və işğaldan azad edilmiş torpaqlarımızda da alovlanır. Milli dəyərlərimizi və adət-ənənələrimizi təcəssüm etdirən Novruz bayramı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun diqqət və qayğısı ilə bu qədim diyarda hər il yüksək nailiyyətlərlə qarşılanır, baharın gəlişi quruculuq, əmin-amanlıq və sabitlik şəraitində qeyd olunur. Naxçıvan Qarnizonu Qoşunlarında xidmət edən hərbi qulluqçular da Novruzu yüksək döyüş ruhunda qarşılayır, qədim Naxçıvanın müdafiəsində dayandıqlarına görə qürur hissi keçirirlər.

Ön xətdə keçirilən bayram tədbirində Şərur Rayon Mədəniyyət Sarayının "Şərur" Xalq Yallı Ansamblının üzvləri xalq oyun və tamaşaları ilə əsgərlər qarşısında çıxış etdilər. Hərbi hissənin bədii özfəaliyyət kollektivinin və Şərur Rayon Mədəniyyət Şöbəsinin "Arpaçay" İnstrumental Ansamblının üzvlərinin konsert proqramı ilə çıxışları şəxsi heyətdə xoş bayram ovqatı yaratdı.

Naxçıvan Qarnizonu Qoşunlarında keçirilən bayram ovqatlı silsilə tədbirlər Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən yaradıcı kollektivlərin iştirakı ilə davam etdi.

**Nəriman NƏCƏFOV**
**Naxçıvan Muxtar Respublikası**





Bakı şəhəri Gənclər və İdman Baş İdarəsinin, Qaradağ rayon Gənclər və İdman İdarəsinin və Əli Əmirov adına Mədəniyyət Sarayının musiqi kollektivinin təşkilatçılığı ilə "N" hərbi hissəsində Novruz bayramı münasibətilə tədbir keçirildi.

Tədbiri giriş sözü ilə mayor Anar Kazımov açaraq bildirdi ki, Novruz bayramı xalqımızın ən qədim bayramıdır. Novruz həm də yazın gəlişi, təbiətin oyanışı deməkdir. Bu bayramda bolluq, bərəkət rəmzi olan səməni cücərdilir. Qədim dövrlərdən bu günümüzə qədər yaşadılan bu adət-ənənə həm də millətimizin ən qədim mədəniyyətə malik olmasından xəbər verir.

Gənclər və İdman Baş İdarəsinin sektor müdiri Zamin Əhmədov, Qaradağ rayon Gənclər və İdman idarəsinin nümayəndələri Elçin Abbasov, İlqar Qasımov, Mövsüm İbrahimov çıxış edərək bildirdilər ki, hər il olduğu kimi, bu il də onlar ənənəyə sadiq qalaraq əsgərlərlə Novruz şənliyini qeyd etməyə gəliblər. Xalqımıza Zəfər sevincini yaşadan qəhrəman Azərbaycan əsgərinin qarşısında çıxış etmək və bu bayramı onlarla birlikdə qeyd etməkdən qürur duyduqlarını bildirdilər. Bahar bayramında hazırlanan ləziz şirniyyatlardan və müxtəlif çərəzlərdən ibarət xonçalarla əsgərlərin görüşünə gəldiklərini qeyd etdilər.

Novruz bayramının personajları olan Keçəl, Kosa və Bahar qızı da musiqi kollektivi ilə əsgərləri şənləndirdi.

Novruz şənliyində "Günəş" rəqs qrupu maraqlı nömrələrlə çıxış etdi.

Qaradağ rayon Mədəniyyət evinin müğənniləri şən mahnılar ifa etdilər.

Tədbirin sonunda qonaqlar hərbi xidmətdə fərqlənən hərbi qulluqçulara diplomlar və qiymətli hədiyyələr təqdim etdilər.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**



Abşeron Rayon İcra Hakimiyyətinin, icra hakimiyyəti başçısı yanında fəaliyyət göstərən İctimai Şuranın və Abşeron Mədəniyyət Evinin birgə təşkilatçılığı ilə Müdafiə Nazirliyinin "N" hərbi hissəsində əsgərlər üçün Novruz şənliyi təşkil olunub. Tədbirdə rayon icra hakimiyyəti başçısının müavini Gülnar Rəhimova, İctimai Şuranın üzvləri və hərbi hissənin şəxsi heyəti iştirak edib.

AZƏRTAC xəbər verir ki, hərbi hissənin komandanlığı Abşeron Rayon İcra Hakimiyyətinin rəhbərliyinin bayram gününü əsgərlərlə birlikdə keçirməsini yüksək qiymətləndirərək, ölkədə orduya böyük diqqət və qayğının göstərildiyini, əsgərlərimizin torpaqlarımızı daim müdafiə etməyə hazır olduğunu bildirib.

Rayon icra hakimiyyəti başçısının müavini Gülnar Rəhimova hərbi hissənin əsgər və zabit heyətini bayram münasibətilə təbrik edərək, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında döyüşlərdə əldə edilən Zəfərdən danışaraq, Azərbaycanın ordu quruculuğunda böyük nailiyyətlər əldə etdiyini diqqətə çatdırıb.

Sonra hərbi xidmətdə fərqlənən bir qrup əsgər və zabit fəxri fərmanlarla təltif olunub.

Tədbir incəsənət nümayəndələrinin konsert proqramı ilə davam etdirilib.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** 1941-1945-ci illərdə alman faşizminə qarşı aparılan mübarizədə Azərbaycan xalqının rolu

**Suallar:**

**1. Almaniyanın SSRİ-yə qəfil hücumu və Böyük Vətən müharibəsinin başlanması.**

**2. Azərbaycan II Dünya müharibəsi illərində.**

**3. Azərbaycanlıların faşistlərə qarşı döyüşlərdə qəhrəmanlıqları.**

## Almaniyanın SSRİ-yə qəfil hücumu və müharibənin başlanması

İkinci dünya müharibəsi bəşəriyyətin XX əsrdə üzləşdiyi ən ağır və dəhşətli dövrü olmuşdur. 1933-cü ilin yanvarında Hitlerin Almaniyada hakimiyyətə gəlməsi ilə müharibənin reallaşması həqiqətə çevrildi. Dünya ağalığı iddiasında olan alman faşizmi öz niyyətlərinə çatmaq məqsədilə 1939-cu il sentyabrın 1-də Polşaya hücum etməklə İkinci Dünya müharibəsinə başladı. 1941-ci ilin yayına qədər alman faşistləri, demək olar ki, Polşanı, Avstriyanı, Çexoslovakiyanı, Yuqoslaviyanı, Yunanıstanı, bütövlükdə Avropanın bir neçə ölkəsini və Fransanın xeyli hissəsini zəbt etmişdilər. Onlar Avropanın təqribən 290 milyon nəfər əhali yaşayan 2 milyon kvadratkilometr ərarizisini ələ keçirmişdilər.

Almaniya hələ 1940-cı ilin ikinci yarısında SSRİ-yə hücüm etmək planı hazırlamağa başlamış və 1940-cı il dekabrın 18-də Hitler tərəfindən təsdiq olunmuşdu. Ona simvolik olaraq "Barbarossa" adı verilsə də, "ildırım sürətli müharibə" planı adlandırılırdı. Həmin plana görə, 1941-ci ilin payızına qədər SSRİ diz çökdürülməli idi.

Faşist Almaniyası 23 avqust 1939-cu ildə imzalanmış, on il müddətinə hücüm etməmək, dostluq və əməkdaşlıq haqqında müqavilələrini pozaraq, 1941-ci il iyunun 22-də bütün sərhəd boyu SSRİ-yə hücum etdi. Bu, Rusiyanın sovet dövrü tarixinə Böyük Vətən müharibəsi kimi daxil olmuşdur. Düşmənin yaxşı silahlandırılmış və hərtərəfli təcrübə, habelə təlim keçmiş 5,5 milyonluq canlı qüvvəsi, yüksək hərbi texnikaya malik 190 diviziyası Barens dənizindən cənuba doğru uzanan 5 min kilometrlik ərazidə: şimal, mərkəz və cənub istiqamətlərində geniş əməliyyata başladı. Müharibənin ilk dövründə qüvvələr nisbəti düşmənin xeyrinə idi və ilk yarım ildə xeyli uğur qazandı, ölkənin içərilərinə soxuldu, Leninqradı (Sankt-Peterburq) mühasirəyə aldı. Moskvaya qədər irəliləyə bildi, sovet ordusunun 1,5 milyon canlı qüvvəsini əsir aldı, xeyli hərbi texnikasını sıradan çıxara bildi.

Faşist Almaniyası İtaliya, Rumıniya, Macarıstan və Finlandiya da daxil olmaqla, işğal etdiyi bütün ölkələrin iqtisadi və hərbi potensialını öz əlində cəmləşdirdi. Faşist Almaniyası hərbi cəhətdən SSRİ-dən 1,5-2 dəfə güclü idi. SSRİ isə hələ müharibəyə tam hazır deyildi. Ölkədə arxayınlıq hökm sürürdü, üstəlik, müharibə ərəfəsində keçirilən kütləvi-siyasi repressiyalar orduya böyük zərbə vurmuşdu. Sovet ordusunun komanda heyətindən 43 min nəfər repressiyaya məruz qalmışdı. Məhz bunlara və digər səbəblərə görə faşistlər ilk vaxtlar böyük qələbələr qazandılar.

Müharibənin ilk mərhələsində antihitler koalisiyası formalaşdı. 1941-ci ilin yayında SSRİ, ABŞ və Böyük Britaniya arasında çox fəal danışıqlar aparıldı və bir sıra müqavilələr imzalandı. Avqustun 2-də ABŞ SSRİ-yə iqtisadi yardım edəcəyi barədə qərarını bildirdi. 1942-ci ilin 23 fevralında ABŞ və Böyük Britaniya arasında təcavüzkara qarşı mübarizəyə qarşılıqlı yardım prinsipləri barədə saziş imzalandı. Faşizm əleyhinə kapitalizm və sosializm sistemlərinin vahid koalisiyası yaradıldı, burada 50 dövlət birləşdi.

Müharibənin gedişində əsaslı dönüşün yaranmasında Şərq cəbhəsində sovet qoşunlarının Stalinqrad (1942-1943) və Oryol-Kursk ətrafında faşist ordularına qarşı keçirdikləri hərbi əməliyyatların müstəsna rolu oldu. 1944-cü ilin əvvəlindən etibarən SSRİ qoşunlarının keçirdiyi bir sıra strateji hərbi əməliyyatlar nəticəsində faşistlər tərəfindən zəbt olunmuş sovet əraziləri tamamilə azad edildi, döyüşlər Avropa ölkələrinə keçirildi. 1944-cü ilin oktyabrı üçün SSRİ-nin keçmiş sərhədi bərpa olundu. 1944-cü il iyulun 6-da Fransanın şimalına (Normandiya) qoşun çıxarılması ilə ikinci cəbhə açıldı. 1945-ci il aprelin 16-da Berlin uğrunda döyüşlər başlandı. Aprelin 25-də Elbada müttəfiq qoşunları görüşdü. Berlinin mühasirəsi başa çatdı. Mayın 2-də Berlin alındı. Mayın 8-də Almaniya danışıqsız təslim aktını imzaladı.

## Azərbaycan II Dünya müharibəsi illərində

Zəngin sərvətlərə və əlverişli coğrafi mövqeyə malik olan Azərbaycan İkinci Dünya müharibəsində də iri dövlətlərin marağında mühüm yer tuturdu. Almaniya Bakı neftini ələ keçirməklə Şərqə - İran körfəzinə və Hind okeanına hərəkət etmək niyyətində idi. Hitlerin tapşırığı əsasında hətta Bakının sənaye və hərbi əhəmiyyətli obyektlərinin dəqiq xəritəsi də hazırlanmışdı.

Sovet Azərbaycanı SSRİ-nin tərkibində olduğuna görə hələ 1939-cu ilin payızında müharibəyə cəlb olunmuşdu. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: "İkinci Dünya müharibəsi, əvvəlki müharibələrdən fərqli olaraq, süvari və piyadaların deyil, ilk növbədə motorların, tankların, qırıcı və bombardmançı təyyarələrin, digər döyüş maşınlarının müharibəsi olmuşdur. Neft və neft məhsulları olmadan hərbçilər bu texnikanı hərəkətə gətirib düşmən üzərində qələbəni təmin edə bilməzdilər. Müharibə illərində Azərbaycan neftçiləri bütün çətinliklərə baxmayaraq, silahlı qüvvələri kifayət qədər yanacaqla təmin edə bilmişdilər".

Müharibə illərində Azərbaycanın bütün iqtisadiyyatı da müharibə tələblərinə uyğun qurulmuşdu. Bütün sənaye sahələri cəbhə üçün məhsul istehsal etməyə başlamışdı. Müharibə illərində Bakı ölkə neftinin 70-75%-ni, benzinin 85-90%-ni verirdi. 1941-1945-ci illərdə Bakı ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin vermişdi. Bakı döyüşən ordunun cəbbəxanalarından birinə çevrilmiş, "Katyuşa" raketi, “Şpakin” pulemyotu istehsal edir, burada "YAK-3" qırıcı təyyarəsi yığılırdı. Ümumən Bakıda 130-dan çox silah və hissələri hazırlanırdı.

Müharibə illərində Azərbaycanın elm xadimləri də müxtəlif problemlərin uğurlu həlli yolunda səylə çalışırdılar. Məşhur kimyaçı alimlərimizin, o cümlədən Yusif Məmmədəliyevin və başqalarının birgə səyi və əməkdaşlığı nəticəsində ən yüksək oktanlı benzin və sürtkü yağları növləri alınmışdı. Kimyaçı alimlər müharibə illərində 38 növ sürtkü yağı, 9 adda təyyarə benzini və 8 növ dizel yağı istehsalını təşkil etmişlər. Keçmiş SSRİ-nin sabiq müdafiə naziri, Sovet İttifaqı marşalı, dörd dəfə Sovet İttifaqı Qəhrəmanı K.Y.Jukov öz memuarında yazmışdı: "Bakı cəbhəni lazım olduğu qədər yanacaqla fasiləsiz olaraq təmin edirdi". Rus şairi S.Mixalkov isə bu münasibətlə yazırdı: "Bakı nefti olmasaydı, heç bir tank, heç bir təyyarə yerindən tərpənməzdi, ölkədə istehsal olunan külli miqdarda hərbi texnika dəmir yığnağı olardı və qələbə qazanılmazdı".

Müharibə dövründə respublikamızın sənaye müəssisələri qələbə naminə cəbhəni lazımi məhsullarla aramsız olaraq təmin edirdilər. Azərbaycanın yüngül sənayesi cəbhənin ehtiyacları üçün təxminən 30, yeyinti sənayesi 50, yerli sənayesi isə 200 növə qədər məhsul istehsal edirdi. Müharibə illərində ümümilikdə cəbhəyə respublikamızdan 125 vaqon isti paltar, o cümlədən, milyonlarla zəruri mal yollanmışdı. Eyni zamanda, ordu üçün respublikamızdan dava-dərman, tibbi preparatlar və başqa lazımi dərmanlar da göndərilmişdi. Azərbaycan vətəndaşları 1941-1943-cü illərdə müdafiə fonduna 15 kq qızıl, 952 kq gümüş, 311 milyon manatlıq istiqraz vermişdilər.

Azərbaycan xalqının misilsiz xidmətləri, qələbə naminə göstərdiyi fədakarlıq ermənipərəst İttifaq rəhbərliyi tərəfindən qiymətləndirilməmiş, hətta Azərbaycana qarşı ayrı-seçkilik, ikili standart tətbiq olunmuşdu. Bakı müharibə illərində cəbhəyə həm yanacaq verir, həm də hərbi texnika istehsal edirdi. Lakin bunun müqabilində Bakıya "qəhrəman şəhər" adı verilmədi, keçmiş SSRİ-də Moskva, Leninqrad və Kiyevdən sonra iri şəhər olan Bakıya II və III dərəcəli status verildi, Tiflis və Yerevan isə I dərəcəli şəhər kimi ən yüksək dərəcədə təmin edildi.

## Azərbaycanlıların faşistlərə qarşı döyüşlərdə qəhrəmanlıqları

Ümumi əhalisi 3,4 milyon olan Azərbaycan "Böyük Vətən müharibəsi" kimi tarixə düşmüş 1941-1945-ci illər müharibəsinə 640 minə yaxın oğlan və qız göndərmişdi. Böyük Vətən müharibəsi illərində Azərbaycanda yaradılan beş milli diviziya - 77-ci, 223-cü, 271-ci, 402-ci və 416-cı diviziyalar şərəfli döyüş yolu keçərək Azərbaycan xalqının və Böyük Vətən müharibəsi tarixinə qızıl hərflərlə daxil oldu. Müxtəlif cəbhələrdə göstərdikləri rəşadətə görə 416-cı diviziya "Taqanroq diviziyası" (Taqanroqu azad etdiyinə görə), döyüşçülərinin əksəriyyətini azərbaycanlılar təşkil edən 227-ci diviziya "Temryuk diviziyası" (Taman yarımadasını azad etdiyinə görə), 77-ci diviziya isə "Simferopol diviziyası" (Simferopolu azad etdiyinə görə) adını qazanmışdılar. 416-cı diviziya Qafqazdan Berlinə qədər döyüş yolu keçmiş, Berlinin zəbt olunmasında iştirak etmişdi. Cəbhə xətti üçün Azərbaycanda 15 min tibb işçisi, 750 rabitəçi, 3 min sürücü hazırlanmışdı. Azərbaycan xalqının bu müharibədə göstərdiyi əzmkarlıq və qəhrəmanlıqları haqqında ulu öndər Heydər Əliyev demişdir: "Azərbaycan xalqı İkinci Dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət və əzmkarlıq nümunələri göstərmişdir. Müharibə başlanandan keçən qısa müddət ərzində Azərbaycan Respublikası ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdir".

1941-ci il iyulun 17-də Leninqrad səmasında Hüseynbala Əliyev döyüş tapşırığını uğurla yerinə yetirib geri qayıdarkən 3 düşmən təyyarəsi ilə üz-üzə gəlir. Qeyri-bərabər döyüşdə sərrast atəşlə düşmən təyyarələrinin üçünü də məhv edən cəsur pilot 17 güllə yarası almasına baxmayaraq öz qırıcısını yerə endirə bilir. Göstərdiyi igidliyə görə o, ölümündən sonra Lenin ordeni və Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.

1941-ci ilin dekabrında Novqorod yaxınlığındakı Pustinka kəndi uğrunda döyüşlərdə İsrafil Məmmədov misilsiz igidlik göstərmiş, 10 saat düşmənlə qeyri-bərabər qanlı döyüşdə təkbaşına yüzlərlə alman faşistini öldürmüşdü. Döyüşlərdə yüksək iradə və qəhrəmanlıq göstərən İsrafil Məmmədov ilk azərbaycanlı olaraq Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Qafur Məmmədov və İdris Süleymanov da Şimali Qafqaz uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərmişlər. 1942-ci ildə Stalinqrad uğrunda döyüşlərdə Baloğlan Abbasovun snayperlər qrupu, Həzi Aslanovun tank alayı böyük igidlik göstərmişdi. Həzi Aslanovun tank alayı düşmənin 45 tankını, 26 topunu, 50 avtomobilini və eyni zamanda, 2 min nəfərədək zabit və əsgərini məhv etmiş, 13 tankını və 175 avtomaşınını ələ keçirmiş, 700 nəfəri əsir götürmüşdü. H.Aslanov 1942-ci il dekabrın 22-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. O, ikinci dəfə bu adı Brezina çayını keçərək Presini şəhərini və 508 yaşayış məntəqəsini azad etdiyinə görə almışdı. 1945-ci ilin yanvarında Polşa və Çexoslovakiyanın faşistlərdən təmizlənməsi uğrundakı döyüşlərdə göstərdiyi igidliyə görə Ziya Bünyadov da daxil olmaqla, 20 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.

Azərbaycandan cəbhəyə səfərbər olunan 640 min nəfərdən yarıdan çoxu həlak olmuş, itkin düşmüş, 123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 170 mindən çox azərbaycanlı əsgər və zabit müharibədə göstərdiyi igidliklərə görə müxtəlif orden və medallarla təltif olunmuşdu. Təkcə SSRİ-nin deyil, digər ölkələrin də faşizm işğalından azad edilməsində xüsusi qəhrəmanlıq göstərmiş əfsanəvi qəhrəman "Mixaylo" - Mehdi Hüseynzadə kimi Azərbaycan övladları həm İtaliya, həm Yuqoslaviya, həm də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə gəlməsindən sonra müharibə veteranlarının xidmətləri çox yüksək qiymətləndirilmiş, veteranlara dövlət qayğısı göstərmək haqda 1994-cü ildə fərman imzalamışdır. Ölkəmizdə müharibə veteranlarına göstərilən diqqət və qayğı ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu gün də yüksək səviyyədə davam etdirilir. Prezident İlham Əliyevin 1941-1945-ci illər müharibəsi veteranlarına, əlillərinə, həlak olmuş və sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, müharibə illərində arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə dövlət qayğısının artırılması haqqında verilmiş fərmanı, Qələbə günü münasibətilə hər il müharibə veteranlarının təbrik edilməsi və onlara verilən birdəfəlik yardımlar haqqında sərəncamları və yubiley medalları ilə təltif edilməsi buna əyani sübutdur.

XX əsrdə bəşəriyyət alman faşizmi ilə, azərbaycan xalqı isə həm də dörd dəfə (1905-1911, 1918-1924, 1948-1954, 1988-1994) erməni faşizminin vəhşilikləri ilə üzləşmişdir. Erməni daşnaqlarının törətdikləri vəhşiliklər öz miqyasına və qəddarlığına görə heç də Böyük Vətən müharibəsində faşistlərin törətdikləri vəhşiliklərdən az deyil. 1988-1994-cü illərdə növbəti dəfə Azərbaycan Respublikasının ərazi bütövlüyünə göz dikən Ermənistan havadarları ilə öz istəyinə qismən nail olmuş, Azərbaycanın 20 faiz ərazisini işğal etmişdi. 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əks-hücum əmri verdi. Babalarımızın Böyük Vətən müharibəsində, atalarımızın Birinci Qarabağ savaşında, qardaşlarımızın Aprel döyüşlərində və Naxçıvan əməliyyatında göstərdikləri qəhrəmanlıqları özünə örnək götürən qəhrəman Azərbaycan əsgəri Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə torpaqlarımızı işğaldan azad etdi. Azərbaycan tarixi Zəfər qazandı.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Türkiyədə müalicə alan qazilərimiz üçün Novruz bayramı şənliyi təşkil olunub





*Azərbaycanın Türkiyədəki səfirliyi nəzdində hərbi attaşelik aparatı tərəfindən Novruz bayramı münasibətilə qardaş ölkədə müalicə alan və reabilitasiya prosesi keçən qazilərimiz üçün Bursa şəhərində təntənəli bayram mərasimi təşkil edilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bayram şənliyində Kocaeli və Bursa şəhərlərində bərpa və müalicə prosesi keçən qazilərimiz, eləcə də onların ailə üzvləri, qazilərimizi müalicə edən həkimlər və digər tibb işçiləri, Bursada təhsil alan tələbələrimiz, habelə Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, İstanbuldakı baş konsulumuz Nərminə Mustafayeva, Azərbaycanın Türkiyədəki hərbi attaşesi polkovnik Müşfiq Məmmədov və yerli hakimiyyət orqanlarının təmsilçiləri iştirak ediblər.

Azərbaycanın və Türkiyənin Dövlət Himnlərinin səsləndirilməsi ilə başlayan mərasimdə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edənlər Azərbaycanın Vətən müharibəsində əldə etdiyi şanlı Zəfərdən, Novruz adət-ənənələrindən, bu bayramın türk dünyası üçün əhəmiyyətindən danışıblar.

Bədii hissədə Azərbaycandan gələn musiqi qrupu milli musiqimizin nümunələri ilə qəhrəman qazilərimizin könlünü oxşayıb.

## "Novruz bayramı türk dünyasını birləşdirir"

Qazaxıstanın paytaxtı Nur-Sultanda Beynəlxalq Türk Akademiyası (BTA) bu il Novruz bayramını rəngarəng tədbirlərlə qeyd edib.

AZƏRTAC xəbər verir ki, Akademiyanın təşkil etdiyi tədbirdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə ilə yanaşı, Türkmənistan, Özbəkistan, Macarıstan, Monqolustan və Tacikistandan diplomatik korpusun rəhbərləri, elm xadimləri, deputatlar və mətbuat nümayəndələri iştirak ediblər.

Tədbirdə qonaqlar türk dünyasının qədim Novruzla bağlı adət və ənənələrin təqdim olunduğu sərgini gəziblər.

Novruz tədbirini bu dəfə Akademiyanın yeni binasında qeyd etdiklərini bildirən Beynəlxalq Türk Akademiyasının rəhbəri Darxan Kıdıralı bu bayramın türk dünyasını birləşdirdiyini qeyd edib. Tacikistanın da bu il ilk dəfə bayram tədbirinə qatıldığını deyən D.Kıdıralı Akademiyaya marağın günü-gündən artdığını, Özbəkistanın BTA-ya üzv olmaq üçün müraciət etdiyini bildirib.

Tədbir çərçivəsində Ahmet Baytursınovun anadan olmasının 150 illiyi münasibətilə Beynəlxalq Türk Akademiyası tərəfindən hazırlanmış "Ahmet Baytursınov və Alaş" kitabının qazax, rus və ingilis dillərində yeni nəşrinin təqdimatı keçirilib. Yeni nəşrləri təqdim edən Beynəlxalq Türk Akademiyasının rəhbəri 2022-ci ili türk dünyası üçün "Ahmet Baytursınov ili" elan edib.

Sonra tədbir iştirakçıları Novruz bayramı şərəfinə hazırlanmış təamlardan dadıblar. Diplomatik nümayəndəliklər bayram süfrəsi üçün öz milli yeməklərini təqdim ediblər.

## Naxçıvanda yüksək dağlıq ərazidə məşğələlər keçirilir



*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, "Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinə uzlaşma planı"na əsasən, çətin qış şərtlərində məşğələlər keçirilir.*

Naxçıvan Qarnizonu Qoşunlarının xüsusi təyinatlı bölmələri ilə "Yüksək dağlıq ərazidə və şiddətli soyuqlarda bölmələrin fəaliyyəti" mövzusunda keçirilən məşğələlər davam edir.

Artıq bir qar şəhərciyinə çevrilmiş təlim ərazisində xüsusi təyinatlı bölmələr tərəfindən pusqu, basqın və ərazidə yerləşmə kimi fəaliyyətlər icra edilir.

Qarlı-çovğunlu şəraitdə hərəkət üsul və fəndlərini öyrənən şəxsi heyətin dağlıq ərazidə və hərəkətdə atəşaçma bacarıqları təkmilləşdirilir.



### Əsgərin tribunası

## "Ərazi bütövlüyümüzü inamla qoruyuruq!"

Qalib və rəşadətli Azərbaycan Ordusunun sıralarında xidmət edən hər gənc kimi mən də fərəhliyəm. Fəxr edirəm ki, əsgərəm, Vətəni qoruyuram. Hərbi xidmətimi uğurla başa vurmağıma az qalıb. Mən də tərxis olunacam. Vətəni qorumaq şərəfli və müqəddəsdir. Ona görə də əsgəri xidmət keçmək hər birimizin Vətən qarşısında övladlıq borcudur.

Ordu sıralarına ilk gəldiyim gündən məqsədim rəşadətli ordumuzun adına layiqli əsgər olmaq, nümunəvi xidmət edərək, ailəmin yanına başıuca qayıtmaqdır. Bu şərəfli yolu uğurla keçdiyim üçün çox sevinirəm. Bu yol hər bir gənc üçün müqəddəsdir, şərəflidir. Hərbi xidmət yaşına çatmış yoldaşlarıma, dostlarıma demək istəyirəm ki, Vətənimizə xidmət etmək hər bir gəncin müqəddəs borcudur. Xidmətim dövründə bir çox gərəkli keyfiyyətlərə yiyələnmişəm, dəyərli dostlar qazanmışam. Həmçinin komandirlərimizdən hərbi biliklərin və vərdişlərin sirlərini öyrənmişəm. Bir sözlə, hərbi xidmət




bizi həm bacarıqlı əsgər kimi, həm də cəmiyyətə yararlı vətəndaş kimi formalaşdırır. Xidmətimizin uğurlu keçməsi üçün hər cür şəraitimiz var. Komandirlərimiz qayğılarımızla mütəmadi olaraq maraqlanırlar. Hərbi xidmət üçün yaradılan yüksək şəraitə görə öz adımdan və bütün əsgər yoldaşlarım adından Ali Baş Komandanımıza və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm.

Bu gün Azərbaycan vətəndaşı olan hər kəs, dövlətimizlə və müstəqilliyimizin dayağı olan ordumuzla qürur duyur. İkinci Qarabağ müharibəsində ordumuzun gücünü və qüdrətini bütün dünya gördü. Otuz ilə yaxın müddətdən sonra xalqımıza zəfər sevinci yaşadan igid qardaşlarımızın göstərdiyi qəhrəmanlıqlar bizim üçün örnəkdir. Döyüşlər zamanı torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi hər zaman əzizdir və bizimlədir. Onların yolunu biz davam etdirir, əmanət qoyduqları ərazi bütövlüyümüzü inamla qoruyuruq.

Böyük həyəcan və sevinclə gəldiyim hərbi xidməti artıq qürurla başa vurmağa hazırlaşıram. Rəşadətli ordumuzun sıralarında hərbi xidmət keçən qardaşlarımın hər birinə bu şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlməyi, şərəfli əsgər adını tərxis edildikdən sonra layiqli vətəndaş adı ilə tamamlamağı arzu edirəm.

**Əsgər**
**Cabir İSGƏNDƏROV**
**"N" hərbi hissəsi**

# Vətənsevər millətin əzmi qırılmaz

Bəşəriyyətin yaradılışından olum ya ölüm fəlsəfəsilə qarşı-qarşıya dayanan böyük türk milləti Çanaqqalada minlərlə can qurban verərək yenilməzliyini sübut etdi və böyük Yaradanın türkün ruhuna hopdurduğu qüdrətilə əbədiyyət qazandı. Çanaqqala savaşı türk millətinin savaş tarixinə qəhrəmanlıqlarla dolu yeni səhifələr yazdı. Belə ki, dünya hərb tarixində baş verən müharibələrin xronoloji sistemine nəzər saldıqda görürük ki, Çanaqqala savaşının həm nəzəri, həm də praktiki cəhətdən xüsusi önəmi vardır. Bu önəmin mayasında, kökündə türkün milli azadlıq hərəkatındakı qəhrəmanlığı, özünüdərkin psixoloji anları, varlığını yaşatmaq əzmi dayanır. Türklərin cəlb edildiyi, qarşılaşdığı ədalətsiz müharibədə Çanaqqalada aparılan quru və dəniz döyüşündə millət tarixin o zamanında da canlı qüvvədən sipər yaratdı, beyinlərdə, ağıllarda yalnız torpağını, Vətənini qorumaq, millətini yaşatmaq düşüncəsi var oldu. Bu savaş - türkün zaman-zaman yadelli işğalçılara qarşı apardığı şanlı mübarizələrin davamı kimi tarixləşdi. Çanaqqala savaşı tarixi əhəmiyyətli göstəriciləriylə örnək daşıyıcısı oldu.

107 il öncə dünyanın müttəfiq imperialist dövlətləri tərəfindən Osmanlı Türkiyəsini xəritədən silmək planına istiqamətlənmiş bu müharibədə Çanaqqala savaşı türk xalqının şanlı hərb tarixinin fövqündə dayanan, ədalətin bərqərarlığına “sıyrılan qılıncdır”. Çanaqqala həm də türk şəhidlərinin dünya tarixinə öz qanları ilə yazdığı qəhrəmanlıq salnaməsidir. Qəhrəman türk millətinin Çanaqqalada verdiyi ölüm-dirim savaşı dünyada heç bir millətin apardığı mübarizə gücü ilə müqayisə oluna bilməz. Aylarla davam edən Çanaqqala döyüşlərində türkün göstərdiyi cəsarət, hünər, xalqın vətənsevərlik, torpaqsevərlik aşılayan silsilə epopeyalarına çevrilərək, poetik misralara, bədii əsərlərə köçürüldü. Ağır sınaqlara çəkilərək ölümün gözünə dik baxan, ilahidən güc alan, dünyada mənsub olduğu xalqın adını daim uca tutan və tanıdan əyilməz türk millətinin Çanaqqala qəhrəmanlıq salnaməsinin səhifələrini vərəqləyək.

Əvvəlcə Osmanlı Türkiyəsinin taleyini həll edən Çanaqqala boğazının coğrafi mövqeyini tanıyaq. Çanaqqala boğazı Egey dənizindən Mərmərə dənizinə uzanan dar su keçididir. Avropa və Asiyanı birləşdirən, dünyanı qovuşduran nöqtədir. Antik dövrdə troyalılar gözəllik ilahəsi Helena üçün bu məkanda müharibələr aparmış, vaxtilə dünyanı fəth edən məşhur sərkərdə İsgəndər buradan keçmişdir. Dünyada baş verən müharibələr tarixinə ən qanlı su və quru savaşı kimi yazılan Çanaqqalada "Sanmayın ki, Türk yurdu çakallara yurt olur, Saldırınca çakallar hər Türk dönüp kurt olur" - deyən böyük Vətən sevgisinin qüdrəti zəfər çaldı. Birinci Dünya müharibəsini qalib kimi sona çatdırmaq istəyən imperialist qüvvələrin niyyətləri Gelibolu yarımadasında Çanaqqala boğazından keçməklə özündə minilliklərin tarixini yaşadan qədim İstanbulu ələ keçirib Türkiyəyə sahiblənmək, Osmanlı imperiyasını yer üzündən silmək olmuşdur. Rusiya boğazları tutub dənizlərə çıxmağı hədəf götürərkən, İngiltərə Suveyş kanalı və Hind okeanı yolunun təhlükəsizliyi məqsədilə Fələstini ələ keçirmək planını cızırdı, italyanların gözü isə bənzərsiz Antalyaya dikilmişdi. Bu müharibə Türkiyəyə ağlasığmaz müsibətlər gətirsə də, millətə ağır məşəqqətlər yaşatsa da qəhrəman türk əzmi dünyanı sarsıtdı. Savaşı idarə edən komandanlar - qərb generalları heyrətlərini gizlədə bilmədilər.

Tarixin ən qədim dövrlərindən strateji əhəmiyyətə malik olan İstanbul boğazı Qara dənizin qapısı, Çanaqqala isə Egey dənizinin qapısı sayılırdı. Bu boğazlar təkcə Aralıq dənizini Qara dənizə, Avropanı Asiyaya bağlayan dar, ensiz su keçidləri deyil, həmçinin Aralıq dənizinin Cəbəllütariq və Süveyş kanalı ilə inteqrasiya olunaraq dünyanın böyük dənizlərini, materiklərini bir-birinə bağlayan, eyni zamanda, geopolitik



mövqeyi ilə dünya siyasətinə, iqtisadiyyatına böyük təsiri olan strateji mövqe idi. Boğazların bu danılmaz əhəmiyyəti haqqında Napoleon "İstanbul bir açardır, İstanbula sahib olan dünyaya hökm edəcək" demişdi. Rusiya da müxtəlif zamanlarda buna oxşar bəyanatlarla çıxış etmiş, İstanbulu ələ keçirmək üçün Birinci Dünya savaşında Türkiyəni mərkəz xəttə çevirmişdi. Tarixçilər və salnaməçilər Antanta dövlətlərinin İstanbul maraqlarını "Çanaqqala macərası" adlandırırdılar. Yalnız bu boğazlar Türkiyəyə sahib çıxmağın yeganə yolu idi.

Çanaqqala döyüşlərində ordu 250 min şəhid verdi. Tarixi mənbələrdən məlum olur ki, Osmanlı ordusunun verdiyi şəhidlər arasında 3 minədək azərbaycanlı könüllü də olub...

Türk ordusunda xidmət edən azərbaycanlı general Berköz qardaşları həyatlarının sonunadək qəhrəmanlıqla savaşmış, türk tarixinə Zəfər yazanlardan olmuşlar. Bu, əslən Şəkidən olan peşəkar hərbçi və diplomat, Osmanlı İmperiyası və Türkiyə Silahlı Qüvvələrinin zabiti general-polkovnik Məhmet Nuri Berköz və kiçik qardaşı, ordu generalı Mahmud Berközdür. General qardaşların həqiqi soyadı Sarıkərimlidir. Türkiyənin hərbi, siyasi, diplomatik və elmi-ədəbi dairələrində daha yaxşı tanınan böyük qardaş Məhəmməd Nuru Hacı İlyas oğlu Sarıkərimli 1889-cu ildə Şəkidə doğulmuşdu. O, ermənilərin meydan suladıqları çar Rusiyasından yeganə azad türk məmləkəti olan Osmanlı imperatorluğuna pənah gətirir və azadlığı burada axtarır. Ailəsi Bursada yaşayırdı. Məhəmmədlə kiçik qardaşı Mahmud təhsil almaq üçün Bursa əsgəri Rüşdiyyəsinə daxil olurlar. Çanaqqala və Qurtuluş savaşları zəfərlə başa çatdıqdan sonra Məhəmməd Sarıkərimli təhsilini tamamlamaq üçün Baş Qərargah Akademiyasına qayıdır və buranı 1925-ci ildə minbaşı (mayor) rütbəsi ilə başa vurur. 1930-cu ildə o, yarbay (polkovnik-leytenant) rütbəsi alır. Türkiyədə 1934-cü ildə yeni soyad qanunu qəbul ediləndən sonra Sarıkərimli qardaşları özlərinə Berköz soyadını götürürlər.

...Çanaqqala savaşı ilə türk əsgəri qəhrəmanlığı, rəşadəti ilə tarix yazdı. Müharibənin qızğın dövründə 10 nəfər türk əsgərinin 500-dən çox ingilis hərbçisinə qarşı müqavimət göstərməsi və onları geri çəkilməyə məcbur etməsi ingilis generalı Hamiltonu çox təəccübləndirib və o, qeydlərində tərəddüd etmədən hər bir osmanlı əsgərini yüz nəfərə bərabər tutaraq yazıb: "Bu hücumda ingilis əsgərlərinə min nəfər Osmanlı əsgəri müqavimət göstərir". İstənilən halda ittifaq dövlətləri Çanaqqala boğazını keçə bilmədilər və "Çanaqqala keçilməzdir!" - deyimi bu dəfə də öz təsdiqini tapdı. Onların istəyi İstanbulu ələ keçirmək və türkün varlığına son qoymaq idi. Lakin istəklərinə nail ola bilmədilər.

Martın 17-dən 18-nə keçən gecə Osmanlı tarixinin ən əhəmiyyətli döyüşü, bütün zamanlarda Avropa ölkələrinin Çanaqqala boğazıyla İstanbula yetişmək arzusunun gerçəkləşməsinə cəhd edilən savaş başlayır.

Düşmən cəbhəsi müasir hərbi texnika ilə təchiz olunaraq gəmilərində 250-dən artıq top yerləşdirib. Sahil boyu 10 müdafiə istehkamı qurulur. Türklərin isə müdafiə gücü zəif olmaqla, cəmi 170 ədəd köhnə topla təmin edilmişdi. Buna baxmayaraq türk ordusu həlledici döyüşə hazırlaşır. Martın 17-si axşamdan minbaşı Nəzmi bəy, "Nüsrət" mina döyüşçü gəmisi ilə boğaz sularına 11 xətdən ibarət 26 mina düzür, səhər açılana kimi düzülən minaların sayı 400-ə çatır. O zaman heç kim ağlına gətirməzdi ki, "Nüsrət"in boğaz sularına tökdüyü minalar qanlı dəniz savaşının sonunu gətirəcək. Martın 18-i sübh tezdən düşmən qüvvələri - 18 savaş gəmisi ilə döyüşə hazır vəziyyətə gətirilir. Düşmənin əlində müasir silah, türkün ürəyində Vətən sevgisinin gücü, qüvvəti... Budur, türkün Vətən, torpaq sevgisindən aldığı ruhun gücü. Təsiri sonda bəlli... İngilis donanmasına məxsus savaş gəmiləri suya qərq olur, artıq generallar narahatdır, ordu tükənmək üzrədir. Generallar dərk edirlər ki, İstanbulu işğal etməyin Çanaqqala variantı mənasızdır. Buna görə də onlar dərhal qüvvələrini geri çəkməyə başlayırlar. Martın 18-i axşama doğru Türkiyə cəbhəsində də vəziyyət olduqca gərgindir, şəhidlərin, yaralıların sayı minlərlədir. Bütün topçular şəhid olub, meydanda tək Seyid Çavuşdu. Düşmən gəmisi boğaza yaxınlaşmaq üzrədir. Gəminin boğaza çatmasıyla Anadolunun, Türkiyənin taleyi həll olunardı. Tək bircə ədəd 276 kiloluq ağır mərmi qalırdı. Yaralı halda ətrafına göz gəzdirən Seyid Çavuş döyüşçü yoldaşlarını axtarır ki, mərmini yerindən köməkli qaldırsınlar, topun lüləsinə qoyub atsın. Təəssüf... Bu zaman döyüş meydanında tək qaldığını anlayır və "ya Allah" - deyə ağır mərmini yoxdan var olan gücü ilə yerindən qaldırıb topun lüləsinə qoyur və boğaza yan alan düşmən gəmisinə atır. Bir anda gövdəsi dağılan gəmi suyun dərinliyinə enir. Boğazlardakı döyüşlərdə Seyid Çavuşun son dəfə atdığı 276 kiloluq ağır mərmi qanlı müharibənin taleyinə son qoyur. Türk xalqı 250 min övladını şəhid versə də, Çanaqqala zəfərini bayram edir, bu tarixi qələbəni sevinclə qarşılayır.

Kişilərlə bərabər türk qadınlarının da savaş meydanlarında hünər göstərməsi Çanaqqala savaşının ən şanlı səhifələrindəndir.

1915-ci ildə Avstraliyada nəşr olunan "The Ageo" qəzetinin 8 sentyabr tarixli nömrəsində Y.C.Davies adlı bir əsgərin anasına yazdığı məktub dərc olunub: "Yaralandığım 18 may günü 18-21 yaşlarında mahir snayper olan bir türk qızı açdığı sərrast atəşlə gözümüzü açmağa macal vermirdi. Amma günün sonunda bir avstriyalı əsgər onu vura bildi və mən buna çox üzüldüm. Snayper qızın ölüsünü ələ keçirdik, onun bədənində 52 güllə yarası var idi. Bu çox qanlı savaş idi".

Türk qadınları oğullarının saçına xına qoyaraq onları Vətənə qurban edib cəbhəyə göndərib. Belə mərd, döyüşkən qorxmaz vətənpərvər qadını olan millət heç zaman basılmaz.

Çanaqqala uğursuzluğu “məğlubedilməz ingilis donanması” mifini də dağıtdı. Türkiyə ordusu qazandığı zəfərlə sübut etdi ki, dünya bir yerə yığışsa da Çanaqqaladan keçə bilməz. Çünki İstanbulun səddi Çanaqqala, Çanaqqalanın səddi böyük Mustafa Kamal idi. O, cəbhədə zorun, silahın gücü ilə deyil, ağlın, zəkanın Vətən sevgisinin, ruhun gücü ilə döyüşürdü.

Görkəmli bəstəkarımız Vasif Adıgözəlovun monumental əsəri olan "Çanaqqala oratoriyası" özünün qeyd etdiyi kimi, mahiyyətcə rekviyemdir, şəhidlərin ruhuna ithaf edilmiş musiqidir. Həqiqətən, hər dəfə bu oratoriyanı dinlədikdə sanki o döyüş gözlərimiz önündə təkrarən canlanır və türk xalqının əzminə heyran qalırsan.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

***(Yazıda Çanaqqala savaşı haqqında müxtəlif dövrlərdə yazılan məqalələrdən istifadə edilib)***

## “Prezident İlham Əliyev bu çətin dövrdə də ailəmizin yanında oldu”

***Azərbaycan dövləti, Prezident İlham Əliyev hər zaman Azərbaycanın Ukrayna əsilli Milli Qəhrəmanı Viktor Seryoginin ailəsinə diqqət və qayğı göstərir. Azərbaycanın dövlət başçısı bu çətin dövrdə də ailəmizin yanında oldu və Prezident İlham Əliyevin tapşırığı ilə qaynar nöqtədən təxliyə olunmağımıza yardım edildi.***

Bu fikri AZƏRTAC-a müsahibəsində Ukraynanın Xarkov şəhərindən Moldovanın Kişineu şəhərinə təxliyə edilən Azərbaycanın Milli Qəhrəmanı Viktor Seryoginin qızı Oksana Seryogina deyib.

"Azərbaycan dövləti milli qəhrəmanlarımızın xatirəsini hər zaman əziz tutur, şəhid ailələrinin üzvlərinə böyük diqqət və qayğı göstərir. Bu həssas münasibətə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığımı bildirirəm", - deyə Oksana Seryogina əlavə edib.

O bildirib ki, Xarkovdan Moldovaya təxliyə məsələsində Milli Məclisin Ukrayna ilə əlaqələr üzrə parlamentlərarası qrupunun rəhbəri Rüfət Quliyev, "Kiyev Azərbaycanlıları Konqresi" təşkilatının rəhbəri Oleq Krapivin köməklik göstərib.

"Azərbaycanın Moldovadakı səfiri Qüdsi Osmanovun köməyi ilə səfirliyin əməkdaşları bizim ailəmizi Ukrayna-Moldova sərhədindən təxliyə etdilər. Hazırda Kişineuda mənzildə qalırıq. Azərbaycanın Moldovadakı səfiri hər gün bizimlə maraqlanır və lazımi yardımını göstərir. Yaxın günlərdə isə buradan Azərbaycana gedəcəyik. Azərbaycan xalqının bizə göstərdiyi diqqət və yardım əsl qəhrəmanlıq nümayişidir", - deyə Oksana Seryogina vurğulayıb.

Qeyd edək ki, 1944-cü il təvəllüdlü Viktor Seryogin 1992-ci il yanvarın 28-də Şuşadan dinc sakinləri təxliyə edərkən qəhrəmancasına həlak olub. O, ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Oruc MUSTAFAYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 349
Nüsxə 4673